Azərbaycan.- 2021.- 11 iyun. S. 1; 9.



# Avropa çempionluğuna gedən yol Bakıdan da keçir

## Paytaxtımız "Avro-2020"nin 4 matçına evsahibliyi edir

Bu gün futbol üzrə XVI Avropa çempionatı start götürür. İyulun 11-dək davam edəcək çempionatın ilk oyununda A qrupunda İtaliya ilə Türkiyə yığmaları qarşılaşacaq.

Qitə çempionatında iştirak edəcək 24 komanda 6 qrupa bölünüb. Bu formata əsasən, hər qrupda ilk iki yeri tutan komandalar səkkizdəbir finala vəsiqə qazanacaq. Bundan başqa, dörd qrupda üçüncü yeri tutan komandalar da səkkizdəbir finalda oynamaq hüququ əldə edəcək. Bir sözlə, çempionatda iştirak edən 24 komandadan 8-i mübarizəni dayandırmalı olacaq və 16-sı yola davam edəcək.

**Bax: səh. 9**

UEFA EURO2020




# Avropa çempionluğuna gedən yol Bakıdan da keçir



## Paytaxtımız "Avro-2020"nin 4 matçına evsahibliyi edir

XVI qitə birinciliyində komandaların sayının, xüsusən də qələbəyə iddialı kollektivlərin çox olması azarkeşlərə maraqlı və gərgin idman mübarizəsi vəd edir. Belə ki, son Avropa birinciliyinin qalibi Portuqaliya, hazırkı dünya çempionu Fransa, çempionatlara xüsusi oyun planı ilə rəng qatan Almaniya, "Biz bitdi demədən bitməz" deməklə sürpriz nəticələr qazanan Türkiyə, eləcə də heyətlərində ulduz futbolçuların yer aldığı İtaliya, İngiltərə favoritlər hesab olunur.

### "AVRO-2020"nin evsahibləri

| Yer | Tutumu | Azarkeş icazəsi |
|---|---|---|
| "Puşkas" (Budapeşt) | 67.215 | 67.215 |
| "Olimpiya" (Bakı) | 68.700 | 34.350 |
| "Yeni Zenit" (Sankt-Peterburq) | 68.134 | 34.067 |
| "Olimpiya" (Roma) | 70.634 | 23.309 |
| "Uembli" (London) | 90.000 | 22.500 |
| "Milli Arena" (Buxarest) | 55.600 | 18.348 |
| "Yohan Kroyf Arena" (Amsterdam) | 54.990 | 18.146 |
| "Estadio La Kartuxa" (Sevilya) | 60.000 | 18.000 |
| "Hempden Park" (Qlazqo) | 51.866 | 17.115 |
| "Allianz Arena" (Münxen) | 75.000 | 14.000 |
| "Parken" (Kopenhagen) | 38.065 | 12.561 |

Məlum olduğu kimi, Bakıda 4 qarşılaşma keçiriləcək ki, bunlardan 3-ü A qrupunun matçlarıdır. Bütün bunları nəzərə alaraq A qrupunda yer alan komandaların mövcud vəziyyəti barədə qısa məlumat vermək istərdik.

"Avro-2020"nin A qrupunda yer alan ev sahiblərindən İtaliya tarixində ilk dəfə qitə çempionu olmaqla yanaşı, 3 dəfə də ardıcıl turnirin finalında çıxış edib. 2006-cı ildə dünya çempionu olduqdan sonra elə də yüksək nəticə göstərə bilməyən italyanların azarkeşlərin dəstəyindən istifadə edərək çempion olmaq üçün ciddi mübarizə aparacaqları şübhəsizdir. Roberto Mançininin komandasındakı oyunçular əsasən "İnter", "Yuventus", "Roma", "Latsio" və "Napoli"də forma geyinirlər. Lakin İtaliya klublarının ötən mövsüm avrokuboklarda heç də uğurlu olmayan çıxışlarının milli komandaya necə sirayət edəcəyi də çox maraqlıdır. Hücumçulardan Çiro İmmobile 2020-2021-ci il mövsümünü olduqca yüksək səviyyədə keçirib. Heyətində "İnter"də uğurla çıxış edən Nikolo Barella, "Çelsi"də Jorqinyo və "PSJ"də Marko Veratti kimi yarımmüdafiəçilər olan komandanın müdafiə xətti də inamlı təsir bağışlayır. 2006-cı il dünya birinciliyindən sonra Avropa və dünya çempionatlarında güclü rəqiblərlə qarşılaşmada qələbə qazana bilməyən italyanlar üçün qitə birinciliyinin ilk oyununda Türkiyəyə qalib gəlmək mühüm əhəmiyyət daşıyır.

A qrupunun digər favoriti yeni nəsil futbolçuları ilə seçilən, təsnifat mərhələsində öz qapısından cəmi 3 top buraxan Türkiyə millisidir. Turnirə kimi keçirdiyi 3 yoldaşlıq qarşılaşmasının 2-dən qalib ayrılan Türkiyə çempionatın ən inadkar komandalarındandır. Təsnifat mərhələsində yer aldığı qrupda Fransa ilə birlikdə çempionata vəsiqəni çətinlik çəkmədən əldə edən Türkiyə oynadığı matçlarda nümayiş etdirdiyi kompakt futbolla diqqət mərkəzindədir. Müdafiədə Merih Demiral, Çağlar Söyüncü, yarımmüdafiədə Hakan Çalhanoğlu, Yusuf Yazıcı və Okay Yokuşlu ilə çox yaxşı bir komanda formalaşdıran Şenol Günəşin hücum xəttində əsas qol silahı isə Burak Yılmaz olacaq. Start 11-likdə yer alan oyunçulardan 9-nun legioner həyatı yaşaması da "ay-ulduzlular"ın daha baxımlı futbol nümayiş etdirməsində mühüm rol oynayır.

Təsnifat mərhələsində D qrupunun lideri olaraq final mərhələsinə vəsiqə qazanan İsveçrə qatıldığı turnirlərdə bir qədər qəribə çıxışları ilə yadda qalıb. Belə ki, qatıldığı son 6 dünya və Avropa çempionatlarının 4-də qrup mərhələsini rahat keçən isveçrəlilər sonrakı mərhələdə məğlub olaraq mübarizəni dayandırıblar. Onu da deyək ki, İsveçrə millisi eyni qrupda yer aldığı Türkiyə yığması ilə "Avro-2008"də qarşılaşmış və 1:2 hesabı ilə uduzmuşdu. Komandanın heyətində daha çox diqqət çəkən futbolçular Qranit Caka və Xerdan Şakiridir.

Avropa çempionatına qatılan və sürpriz nəticə gözlənilən komandalardan biri də Uelsdir. Uelslilərin "Avro-2020"yə yüksəlməsində sözsüz ki, "Real"ın ulduzu Qaret Beylin rolu böyükdür. Komandanın seçmə mərhələdə qazandığı qələbələrdə oyun planında önəmli rol oynayan Beyl baş məşqçi Rayan Qiqqsin əvəzedilməz futbolçularından biridir. Komandanın heyətində yer alan futbolçular əsasən İngiltərə Premyer Liqasında və Uels liqasında forma geyən oyunçulardır.

Beləliklə, azarkeşlərin böyük səbirsizliklə gözlədikləri "Avro-2020" həyəcanı başlayır. Bakı Olimpiya Stadionunda iyunun 12-də Uels - İsveçrə, iyunun 16-da Türkiyə - Uels, iyunun 20-də isə İsveçrə - Türkiyə matçları oynanılacaq. İyulun 3-də isə Azərbaycan dörddəbir final mərhələsinin bir qarşılaşmasına evsahibliyi edəcək. Ümid edirik ki, Bakıda keçiriləcək oyunlarda tamaşaçılar baxımlı və gərgin matçların şahidi olacaqlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***